# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının Katibliyi haqqında

# Qərar № 68

***Bakı şəhəri, 9 mart 2006-cı il***

“Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Tarif (qiymət) Şurası Katibliyinin işçilərinin say həddi 33 vahid, Şura üçün xidməti minik avtomaşınlarının limiti 2 ədəd müəyyən edilsin.

2. Azərbaycan Respublikası Tarif (qiymət) Şurası Katibliyinin katibinin və işçilərinin aylıq vəzifə maaşları və digər təminatları müvafiq olaraq Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanları aparatı rəhbərinin və işçilərinin aylıq vəzifə maaşları və digər təminatları səviyyəsində müəyyən edilsin.

3. Azərbaycan Respublikası Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası ilə birlikdə bir ay müddətində Şuranın Katibliyinin müvafiq inzibati bina ilə təmin edilməsi barədə razılaşdırılmış təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasına tapşırılsın ki, 15 gün müddətində Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının Katibliyinin cari ildə saxlanılması xərcləri barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

5. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ***

***22 may 2015-ci il tarixli, 193 nömrəli; 15 yanvar 2016-cı il tarixli, 4 nömrəli Qərarlara əsasən dəyişikliklərlə***